

*Əli Rza XƏLƏFLİ*

*(Əvvəli ötən sayımızda)*

İnanmışam doğrunun Allahdan gəldiyinə,
İnanmışam düz yolu Allahın bildiyinə.

Vicdanına tapınan kimsəni Allah sevər,
Vicdanını dananı hər vaxt qəmli ah sevər.

Allahı tanımışam ali vicdan adında,
Mənim haqqa güvəncim yaşayar inadında.

Allahım var deyənlər az deyil çox içində,
Doğru-dürüst Allahlı axtarsan yox içində.

Babəkin istəyinə uzalıdır qollarım,
Üzü sabaha gedir ağ diləkli yollarım.

Mənim yazı yolumda sözümdən tarix keçir,
Fikir-fikir savaşın özündən tarix keçir.

Bir ömür yaşamağın dəyəri ucalıqdır,
Bir ömürdə kimliyin əyarı qocalıqdır.

Həqiqət bir dünyadır, sevərək gələ bilsək,
Dünya bizim olardı ürəkdən gülə bilsək.

Dünya insan evidir, mən onu sevin, - dedim,
Həyatı sevməyənin sonu puçdur söylədim.

Qərəzlər, kinlər dedim insanlığa yağıdır,
Yağılıq axır-əzəl çəkilməz dərd dağıdır.

Mənim sözüm, sənətim öz qəlbimin səsidir,
Çağlar ilham ruhumun səsidir, nəfəsidir.

İşıq ilə zülmətin arasında durmuşam,
Könlümün diyarında haqq sarayı qurmuşam.

Namazında lovğalıq, təsbehində iddia,
Daşıyan hər bir kəsin qismətidir bədd dua.

Hicabların altında sönən gözlər görürəm,
Cihadların önündə yanan közlər görürəm.

Din pərdəsi altına xof yeriyir təzədən,
Xurafat dəyirmanı üyütmədə təzə dən.

Haram qarışır qana yüz kərə ələsən də,
Halalı ayaqlayır məscidə tələsən də.

Məni də daşlayanlar bilirəm ki, tapılar,
Adıma neçə böhtan, neçə hədyan yapılar.

Bilirəm ki, kimlərsə sözümə rişxənd edər,
Kimlər də öz kinindən kəsilər, bənd-bənd gedər.

Yazdığım mənaları görməzdən gələnlərin
Bəxti üzünə gülməz qərəzli gülənlərin.

Haqqın gücü, qılıncı düz sözümdə yeriyər,
Mənə ilham verənlər öz gözümdə yeriyər.

Eşqin hekayətini yazmaq hər vaxt gözəldir,
Ürəklərdə sönməyən sevgi dindən əzəldir.

Yaddaşımda göyərir İsaxanın sözləri,
Ürəyimin odunda küləkləyər közləri.

Mən sənin ilhamına güvənirəm, - söylədi,
Söhbətində, sözündə neçə fikir əylədi.

Təzə mövzu deyil bu, çoxları qələm çalıb,
Bəlkə, neçə qələm də qırılıb yolda qalıb.

Hər könüldən gələn söz dünyaya nur gətirər,
Ümid ocağı sönən sözündən qor götürər.

Könlümün dostlarını tanıdım sənə bir-bir,
Qoy sevgi düyünləri açılsın yenə sirr-sirr.

Bir aşiqin taleyi səslənər ürəyindən,
İndi sevən gənclərə uğur ver diləyindən.

# YOLUM... SABAHIN DAN ÜZÜNƏ

## *"Ölməyən sevginin dastanı" əsərindən parçalar*

Vətənimə deyirəm sərhədində sayıq ol,
Xalqıma üz tuturam, öz dilində ayıq ol.

Ayağıma daş dəysə, bədxahlarım əl çalar,
İlan-ilan niyyətlər süründükcə dil çalar.

Qızıl balıq axtaran xalqları vuruşdurur,
Sular bulansın deyə arxları qarışdırır.

Mənim iti nəzərim yaxşı görür kim kimdir,
Kim dildən bazarçıdır, kim loğmandır, həkimdir.

Hərəmiz bir ömürdə dərdimizə yaşıdıq,
Gördüyümüz ömürdə neçə dərdi daşıdıq.

Köçkünlük əzabları baxtımıza yazıldı,
Qərinəlik bir həsrət vaxtımıza yazıldı.

İnamı işıq bildik, yolumuzdan dönmədik,
Yaxşı-yaman içində ocaq olduq, sönmədik.

Böyüyən uşaqlığın gəncliyində qalmadıq,
Gül olduq cavanlıqda, qocalıqda solmadıq.

İçimizdən böyüdük, belimiz bükülsə də,
Könül evi qurmuşuq bəxt evi sökülsə də.

Qışda dözüb şaxtaya, biz yazı gözləmişik,
Qəlbimizin hökmünə söz-yazı gözləmişik.

Çox mənəmlər üstündə iddialar xar olub,
Sözündə var olana Allahı da yar olub.

Mənim Vətən həsrətim güllənir Vətən boyu,
Sazım dastan eləyər tarixdən ötən boyu.

Məni çətin anlayar çəp gözüylə görənlər,
Özləri tora düşər hiylə toru hörənlər.

Yırtıq deşik inamdan çıxanlar nə görəcək,
Kinindən, qərəzindən baxanlar nə görəcək?

Füzuli babamızın dediyi daş aparar,
Təsbehlə oynamağın «faydası» baş aparar.

Əl açıb duasıyla göydən yağış çağıran
Nə yazıq günə qaldı «dinin dirəy»i İran.

Mətləbdən uzaq düşdüm, deməsin oxucum da,
Bilirəm nə deyəcək qeybətcil toxucum da.

Mənim dinim üstündür, sonunda cənnət durur,
Deyənlər insanlığa daş atır, zərbə vurur.

Din ayrı düşüncəsi kin əkir bu dünyaya,
Ölümlərə, qanlara yol çəkir bu dünyaya.

Mən ölməyən sevgiyə dastan yazdım, bilsinlər,
İnsanlıqdan azanlar insanlığa gəlsinlər.

Bu dastanı yazmağa yol açan bir dostum var,
Adı ilə kimliyə qol açan bir dostum var.

Alimdir, yazıçıdır, əsası da insandır,
Kimliyində ziyalı, adında İsaxandır.

Mən onun təkidiylə bu dastanı başladım,
İnamlara gəl deyib, şübhələri daşladım.

Taleyi qara gələn bir qızın baxtını yaz,
Zamanını söz elə, dövranın vaxtını yaz.

Unudulmaz İlqarın sədaqəti, ilqarı,
Yaddan çıxmaz Nananın vaxtsız solan baharı.

Türk oğlu türk İlqar var, sevimlisi Nanadır,
Burda sevgi bir yana, din xofu bir yanadır.

Qoy Nananın taleyi bir görk olsun xalqına,
Erməni xəstəliyi son dərk olsun xalqına.

Bir tərəfdə sevgi var, bir tərəfdə ədavət,
Ədavət olan yerdə heç olarmı təravət?

Yazılsın qoy Nananın faciəsi dərs qalsın,
Qoy bu dərslər haylara şillə qalsın, tərs qalsın.

Mən yazmışam bir zaman o yolu gəl, sən də get,
Bu mövzunu sən də yaz, bu istəyə sən də yet.

Mən dinlədim dostumu düşündüm ki, nə deyir,
Gördüm onun qəlbini kədər oyur, qəm yeyir.

Oxudum İsaxanın yazdığı əsəri də,
Yazdığında görünür eşqinin kəsəri də.

Bir sevgi dastanını sevgi ilə yazıb o,
Eşqindən gələn dərdi eşq ilə də yozub o.

Bəs mən hardan başlayım hekayəti yazmağa,
Şaman gəlsin yazımın bəxt üzünü yozmağa.

*(Davamı 9-cu səhifədə)*

# YOLUM... SABAHIN DAN ÜZÜNƏ




*(Əvvəli 8-ci səhifədə)*

Qəhətlikdə tapılan fikir əkir yaxşı söz,
Havayı gəlmir dilə, ürək çəkir yaxşı söz.

Yaxşı sözü yazmağa gərək təbin durulsun,
İlhamın cuşa gəlsin, söz sarayın qurulsun.

Dillənmir, cavab vermir, susub indi aləmim,
Aciz olmayıb axı, söz önündə qələmim.

Nə yazım, necə yazım?.. fikir məni sıxırdı,
Qarışıq duyğularım varlığımı yaxırdı.

Zülmətə qərq olmuşdu ağ kağızın üzü də,
Yaddaşım gətirmirdi bircə kəlmə sözü də.

Açılmaz tor içində çırpınırdı ürəyim,
Birdən ötdü buludlar, hasil oldu diləyim.

Qaranlıqlar içindən işıq gəldi Tanrıdan,
Açıldı gözlərimdə al şəfəqli səhər, dan.

Mən də təzə ətirlər çilədim söz üstünə,
Qana tutdum sözümü, ələdim köz üstünə.

Axdı qəlbimin qanı, sətir-sətir güləndi,
Sinəmdə duyğularım ilhamımla tellənd.

Mən «Ölməyən sevginin dastanı»na yol açdım,
Köhnə karvan yoluna ilhamımla qol açdım.

Təzə nəfəs gətirdim, köhnə söz dilə gəlsin,
Ətirlənsin çəmənlər, bülbüllər gülə gəlsin.

Bu bağa güzar etsin, əziz dostum İsaxan,
Qoy gözünə su versin bu dünyaya hər baxan.

Bu dastanda ibrət var, oxuyan görə bilər,
Hər ağrıya-acıya dözümü görən bilər.

Dastanımdan boylanan adlar məni yaz deyir,
Varlığıma təzədən gələn bahar, yaz, deyir.

Sevilməkdən doymayan bir aşiqəm sevgimdə,
Məni sevən kimsəni heç doymadım öygümdə.

Vüqarı, Nərminəni indidən görürəm mən,
Xəyalımda bərq vurur dan üzündə hər çəmən.

Darıxma, ey oxucum, Nananı da yazaram,
Günahsızın bəxtini kimlər pozdu - yozaram.

"Krunk" adlı bayquşun sonu puçdu, biz gördük,
Özgəyə quyu qazan... axırını düz gördük.

Əziz dostum İsaxan, yazıya belə gəldim,
Susuz çöldən yeridim, yazıya belə gəldim.

Qoy bu dünya mənimlə yüz hesabı çürütsün,
Əgər gücü çatırsa, düz hesabı çürütsün.

Hansı şair çıxmayıb dünya ilə savaşa,
Kimin başı dəyməyib əhlədində bir daşa.

Həyatım cəngdə keçib, başıma nələr gəlib,
Bəxtimə yağı kəslər halıma baxıb gülüb.

Təpərimə güvənib çıxmışam hər bir tordan,
Qayıtmışam dünyaya o girdabdan, o gordan.

Dəmir daban altında əzilmədim, sağ qaldım,
Qürurumla, əzmimlə ucalandım, dağ qaldım.

Dünya ilə üz-üzə dayanmışam yenə də,
Mən görkəm mütiyə də, özünü öyənə də.

Çox görmüşəm mövqesiz, duyğusuz taxtaları,
Əməldə xainləri, dostluqda saxtaları.

Özü elə çax-çaxdı dünyanın dəyirmanı,
Baxıb ona aldanır bu dünyanın mehmanı.

Dünya ilə savaşı gərək burda saxlayım,
Sözümü də çətində, elə darda saxlayım.

Ustad Hüseyn Kürdoğlu yaddaşıma gəl dedi,
Qəmlənmə hər çətində, bu günyaya gül dedi.

"Ey dünya" xitabında ustadın qəzəli var,
Ruhları ovutmağa sözünün gözəli var.

Təxmis etdim, "Ey dünya" sənin də üzün gülsün,
Ruhun şad olsun, ustad, bu yerdə sözün gülsün.

Bu təxmislə son verdim "Ön səs"in axırına,
Bəlkə, sözüm son qoyar dünyanın paxırına.

Hər gələnlə sən təzəsən, görməzdim nimdaş olsaydın,
Mən səni doğma bilməzdim gözümdə çıxdaş olsaydın,
Duyardın mənim qəlbimi, qəlbimə candaş olsaydın;
"Bilərdin dərdim, ey dünya, mənimlə yoldaş olsaydın,
Bu sellənmiş Araz içrə cəfakeş bir daş olsaydın".

Sevinərdim tanısaydın, keçdikcə çağlar üstündən,
Ruhumu körpü bilərdin, baxardın tağlar üstündən,
Sən vüsala yol qoymadın, yeridin ağlar üstündən;
"Qırardın bəndini şəksiz, aşardın dağlar üstündən,
Əzabı gizli gözlərdə boğulmuş qan-yaş olsaydın".

Süleymandan üzük aldın, xəbər söylə əmanətdən,
Əmanəti saxlamadın, heç danışma sədaqətdən,
Yalanların nə gücü var, söhbət aça dəyanətdən;
"Nələr söylərdin heyrətlə başın çəkmiş müsibətdən,
Bəyaz barmaqlar üstündən qalan bir daş-qaş olsaydın".

Ağrısını kim saxlayar indi kövrək, qübar eşqin,
Heç doymadım gül üzündən sevgisində bahar eşqin,
Mən bezmədim, usanmadım cəfasından azar eşqin;
"Qalardın qeydinə sən də şirin canın nübar eşqin,
Qudurmuş qəm qomarında mənimtək çaş- baş olsaydın".

Hara baxsam qaranlıqsan, səhərsizsən şairlərdən,
Əli Rza da yol görmədi, təhərsizsən şairlərdən,
Ürəyin daş olub yaman, qəhərsizsən şairlərdən;
"Köçər Kürdoğlu qoynundan, xəbərsizsən şairlərdən,
Bilərdin ki, nə qafilsən, bir anlıq sirdaş olsaydın".

Dünya, səni haqsız gördüm, qürurumdan yenmədim heç,
Çox çalışdın bir əyəsən, əyilmədim, sınmadım heç,
Ətəyinə əl atmadım, qınağına dinmədim heç;
Əzabına sinə gərdim, inamımdan dönmədim heç,
Nələr çəkdim bilərdin sən, bağrından badaş olsaydın.

Sinən üstə yananlara özün də yana bilsəydin,
Yananları niyə yanır, səbəbi qana bilsəydin,
Əməlindən, təməlindən usanıb sına bilsəydin;
Adəmi ata bilsəydin, Həvvanı ana bilsəydin,
Yad olmazdın Xələfliyə, doğmaca qardaş olsaydın.

Yol göstərən ağıl olar,
Ağız dadı noğul olar...
Yaşımızın bu çağında
Bu sevgi də nağıl olar...

Gəl, sabahım olarsan,
Bir Allahım olarsan...
Yarımasam sevgindən,
Min bir ahım olarsan...

Ayrılığı gül bildi,
Gül bildi, sünbül bildi...
Gözlərim qəm çilədi,
Gül məni bülbül bildi...

Nəfəsin mehdi, gəlsin,
Sevgimə behdi gəlsin...
Ağladım gül islandı,
Sən dedin şehdi, gəlsin...

Alovda, ocaqdayam,
Yanmaram, qucaqdayam...
Ürəyinə yaxşı bax,
Gör hansı bucaqdayam...

Dənimə ələk gəlsin,
Sovuram, külək gəlsin...
Uçmusan xəyalımdan,
Xəbərə lələk gəlsin...

Könlümün baharısan,
Yurd yeri, diyarısan...
Çinar boylu sevgimin
Qüruru, vüqarısan...

Eşqində narınam mən,
Bir deyəm yarınam mən...
Çiçəyim, gülüm sənsən,
Barından barınam mən...

***2025***

